UOT 008

R.A.Məmmədova
AMEA-nın müxbir üzvü,
sənətşünaslıq elmləri doktoru, professor,
Memarlıq və İncəsənət İnstitutunun
"İncəsənətin qarşılıqlı əlaqələri" şöbəsinin müdiri

QAFQAZ SENZURA KOMİTƏSİNİN TARİXİNİN SƏHİFƏLƏRİ

Açar sözlər: *mədəniyyət, teatr, Rusiya, senzura, tarix, incəsənət*

Məqalədə Qafqaz senzura komitəsinin fəaliyyəti təsdiq olunur. Qafqaz ziyalılarının yaradıcılığına təzyiq faktı qeyd edilir. Qafqaz senzura komitəsinin kargüzarlığının bütün prosesinə baxılır. Məqalədə komitəyə göndərilən müxtəlif ərizələrin nümunələri göstərilir.

Məqalə Çar Rusiyasının bürokratiyası tərəfindən Qafqaz ziyalılarının nümayəndələrinin yaradıcı təşəbbüslərinin boğulması haqda təsəvvür yaradır.

Р.А.Мамедова

СТРАНИЦЫ ИЗ ИСТОРИИ КАВКАЗСКОГО ЦЕНЗУРНОГО КОМИТЕТА

Ключевые слова: *культура, театр, Россия, цензура, история, искусство*

В статье цитируется деятельность Кавказского Цензурного Комитета. Отмечается факт давления на творчество кавказских интеллектуалов. Рассматривается весь процесс цензуры Комитета. В статье даны образцы различных заявлений, отправленных в комитет. В статье создается впечатление об идеи утопления творческой инициативы кавказских интеллектуалов бюрократией царской России.

XIX əsrin sonu XX əsrin əvvəllərində Azərbaycanda teatr mədəniyyəti mənəvi inkişafın modeli idi. İlk teatr əsərlərində Azərbaycan incəsənətinin ənənələri yaranmışdır. Bununla yanaşı, Azərbaycan teatr mədəniyyətinin mütərəqqi inkişafı, bir qayda olaraq, çar Rusiyası hakimiyyətinin adekvat neqativ reaksiyasına səbəb olurdu.

Azərbaycan tarixinin baxılan dövründə Qafqazda Qafqaz senzura komitəsi mövcud idi. Tiflisdə yerləşən bu komitə Qafqaz dramaturqlarının, yazıçılarının, bəstəkarlarının yaratdığı əsərlərin yoxlanmasını yerinə yetirirdi. Yalnız Qafqaz senzura komitəsinin rəsmi icadəsindən sonra əsərlərin nəşri və səhnəyə qoyulması mümkün idi. Senzura komitəsinin fəaliyyətini təsdiqləyən kifayət qədər çoxlu arxiv sənədləri qalmışdır.

Görkəmli Azərbaycan dramaturqları, bəstəkarları öz əsərlərinin tamaşaya qoyulması üçün icazə almaq məqsədilə senzura komitəsinə müraciət edirdilər. Qeyd edək ki, Qafqaz senzura komitəsində teatr pyeslərinin açıq göstərilməsinə icazə verilmiş və qadağan olunmuş əsərlərin siyahısı mövcud idi.

Çar Rusiyasında "ikinci senzura" adlanan hüquq fəaliyyət göstərirdi. "Dramatik əsərlərin ikinci senzurası hüququ Rusiyanın gücləndirilmiş və ya fövqəladə mühafizə vəziyyəti elan edilmiş yerlərində administrasiya nümayəndələrinə çox tez və asanlıqla keçdi. Və özünün bu qanuni hüququndan administrasiya çox geniş istifadə etməyə başladı, xüsusən, ona görə ki, bütün quberniyalar gücləndirilmiş mühafizə vəziyyətindədirlər" [1]. Qafqaz da belə regionlara aid idi.

"İkinci senzura"nın qaydalarına görə əsərlər xüsusi İmperator dəftərxanasının sirkulyarına müvafiq olması idi. Buna uyğun olaraq "polis "Hökümət Xəbərləri"ndə çap olunmuş siyahılarda və ya kataloqlarda göstərilən bütün pyeslərin tamaşasına icazə verməlidir, ya da mətbuat işləri üzrə Baş idarənin nəzdində dramatik əsərlərin senzorlarından birinin bu İdarənin möhrü ilə təsdiqlənmiş yazılı icazəsi ilə antreprenyor tərəfindən təqdim olunur" [1].

Bu sirkulyarı tənqid edən "Russki artist" jurnalındakı məqalənin müəllifi tamamilə haqlı olaraq hesab edir ki, bu və ya digər əsərin tamaşaya qoyulmasını qadağan edildikdə xahiş edənin qarşısında uzunsürən yazışma durur, nəticədə anterprenyor bu pyesi tamaşaya qoymaq imkanından məhrum olur.

Senzura kargüzarlığı Qafqazın bədii elitasına bürokrat təzyiqin təcəssümü göstərirdi. Bütün xahişlər bir neçə mərhələdən keçirdi, bunlar Komitənin müsbət qərarın proseslərini mürəkkəbləşdirirdi. Belə, öncə bütün əlyazmalar və ərizələr senzura baxılmasından keçirdi. Sonra vəzifəli şəxsin – Qafqazda mülki hissənin baş rəisinin bu və ya digər qərarı gəlirdi. Daha sonra qəti qərar qəbul edilirdi və xahiş edən Qafqaz senzura komitəsindən bildiriş alırdı. Bu proses üçdən səkkiz aya qədər kifayət qədər uzun müddət çəkirdi. Nümunə üçün Şərqdə məşhur qoyulması üçün icazəni göstərim. Ə.Haqverdiyevin "Pəri Cadu" əsərinin tamaşaya qoyulması üçün icazəni göstərim. Ə.Haqverdiyevin xahişindən bir hissəni göstərim: "Pəri Cadu" adlı öz orijinal əsərimin sürətini və rus dilində qısa məzmununu əlavə edərək hörmətlə xahiş edirəm... yuxarıda adı çəkilən əsərin Zaqafqaziya vilayətlərinin səhnələrində tamaşaya qoyulmasına icazə verəsiz" [2].

(Haşiyələr sovet arxivlərinə əsasən verilir, belə ki, mənim elmi işim 1975-1985 illər ərzində aparılmışdır).

Bürokratik süründürmələrdən sonra Ə.Haqverdiyev aşağıdakı əsaslarla icazə aldı: "General-adyutant knyaz Qolitsın 3422 №-si altında tatar dilində tərcümə olunmuş "Pəri-cadu" pyesi, sensura şəhadətinə əsaslanaraq, heç bir senzuraya əks şey daşımır, senzura və mətbuat haqqında nizamnamənin bu maddəsinə görə, bu pyesin Qafqaz vilayətinin səhnələrində tamaşasına icazə verdi" [3].

Həmçinin belə bir faktı da qeyd edək. Azərbaycan mədəniyyət xadimlərinin əsərləri doğma Azərbaycan dilində təqdim olunurdu, lakin Qafqaz senzura Şurası bu əsərlərin daim rus dilinə tərcüməsini tələb edirdi. Yalnız rus dilində əlyazmaları təqdim edildikdən sonra Qafqaz senzura komitəsi icazəyə baxırdı.

Qafqaz senzura komitəsini "ali instansiya" adlandırırdılar və bütün icazələr müəllif ərizəsi əsasında verilirdi. Belə ərizələrdən birini nümunə göstərim. Görkəmli maarifçi Ə.Haqverdiyev 1899-cu il iyunun 1-də yazırdı: "Dağılan tifaq" adlı öz əsərimin iki nüsxəsini təqdim edərək, Senzura komitəsindən acizanə surətdə xahiş edirəm ki, adı çəkilən əsərimin tamaşaya qoyulmasına icazə verilmiş pyeslərin kataloquna daxil etməklə Zaqafqaziya teatrlarının səhnəsində göstərilməsinə izin verilsin" [4].

Senzura komitəsi "Ə.Haqverdiyevin 4 və 5 şəkildə "Dağılan tifaq"adlı dramını tatar-azərbaycan dilində vilayətin teatr səhnələrində göstərilməsinə icazə verməyi buyurdu" [5].

Qeyd etmək lazımdır ki, ərizələr həm orijinal, müəllif əsərlərinin, həm də Avropa və rus klassiklərinin Azərbaycan (tatar) dilinə tərcümə edilmiş əsərlərinə icazə üçün yazılırdı. Bundan başqa, Qafqaz Senzura komitəsi konsert tədbirlərinin, o cümlədən xeyriyyə konsertlərinin keçirilməsi üçün də icazə verirdi.

Qafqaz senzura komitəsinin müəlliflərə rədd cavabı qətiliyi və qeyri-obyektivliyilə fərqlənirdi. Aşağıdakı nümunəni göstərim.

11 dekabr 1890-cı il tarixli sənədlərin birində Bakı rus-tatar məktəbinin müəllimi-sahibi Sultan Məcid Qəniyevə onun "Gönçə xanım" pyesinin nəşrinə dair senzorun rədd cavabı haqda xəbər verilir. Protokol çıxarışında oxuyuruq: "Senzura komitəsi sizi xəbərdar etməyi özünə şərəf bilir ki, "Qönçə xanım" adı altında göndərilən pyesin 2 nüsxəsinə mövcud senzorun baxışına görə, o öz məzmununa görə təkcə səhnədə tamaşa üçün deyil, həm də çap üçün məqbul sayılmamış, ona görə də o, komitənin 5 dekabrda qəbul olunmuş qərarına görə Komitənin işi üzrə tutulmuşdur [6].

Qafqaz senzura komitəsi eyni müəlliflərin ərizələrinə dəfələrlə rədd cavabı verirdi. Bunlardan biri maarifçi və siyasi xadim N.Nərimanov idi. Belə ki, 1900-cu il yanvarın 19-da N.Nərimanov özünün "Nadir şah" komediyasını

tamaşaya qoymaq üçün icazə almaq haqda ərizəni Tiflisə göndərir. Yanvarın 24-də o, rədd cavabı alır: "Senzura komitəsinin cənab sədrinin tapşırığı ilə dəftərxana Sizi "xəbərdar edir ki, sizin tatar dilində olan "Nadir şah" pyesinin səhnələrdə qoyulması qadağan edilir" [7].

Bir qayda olaraq, ərizələrdə əsərin dili, həmçinin tamaşaya qoyulmasının məqsədi, xeyriyyə məqsədilə, qabaqcadan göstərilirdi. Belə bir ərizənin nümunəsini göstərim. Qeyd edim ki, hətta Şərqdə maarifçi kimi tanınan görkəmli şəxsiyyətlər də senzura komitəsinin icazəsi olmadan öz əsərlərini Qafqaz səhnələrində qoymaq hüququna malik deyildilər. Azərbaycan teatrının mənbələrində duran M.F.Axundovun pyesinə görə Qafqaz mərkəzi komitəsinə xahişi belə idi: "Həvəskarlar 1893-cü ilin səhnədə göstərilməsinə icazə verilmiş pyeslər siyahısına daxil edilməyən, M.F.Axundovun tatar dilində "Mərdi Xəsis" pyesini xeyriyyə məqsədilə səhnəyə qoyulmasını təklif edirdilər. Baş rəisin pyesi Yelisavet ictimai məclisinin səhnəsində qoyulmasına icazə verməsini xahiş edirəm" [8]. Yuxarıdan gələn əmrə görə M.F.Axundovun pyeslərinə səhnədə göstərilmək üçün icazə verildi.

Yuxarıda deyilənləri təsdiq edən 1905-ci il tarixli sənəd maraqlıdır. Bu xahiş tacir K.İ.Hacıyevdən və mühəndis A.B.Beybutovdan daxil olmuşdu. Söhbət pulsuz tamaşadan gedir. Həvəskar dərnəyin nümayəndələri Yelizavetpolun və Tiflisin zərər çəkmiş əhalisinin xeyrinə "Qafqaz axşamı" keçirilməsi haqda icazə verilməsini xahiş edirdilər. Bu cür xahişlərin sayı kifayət qədər çoxdur.

Demək lazımdır ki, yeni dram və musiqi əsərlərinin səhnəyə qoyulması Qafqaz senzura komitəsinin xüsusi nəzarəti altında idi. Bunların səhnəyə qoyulmasına icazəni Komitənin yoxlaması nəticəsində imperator əlahəzrətlərinin Qafqazdakı canişini verirdi. Uzun sürən aprobasiya prosesində zəncirvari yazışmalar mövcud idi. Azərbaycan bəstəkarlıq məktəbinin banisi və korifeyi Ü.Hacıbəyovun "Arşın mal alan musiqili komediyasını gürcü dilinə tərcümə edilməsi üçün icazəyə aid yazışmanın qısa variantını göstərim.

"Tiflis senzura komitəsinə
mətbuat işləri üzrə İvan Giqoşvili

Ərizə

Üzeyir Hacıbəyovun 4 pərdəli operettasını tatar dilindən gürcü dilinə mənim tərcümə etdiyim 2 nüsxəni təqdim edərək, özümə şərəf bilirəm ki, "Arşın mal alan" adlı bu operettanın gürcü dilində Qafqaz hüdudunda səhnəyə qoyulmasına icazə verməyinizi xahiş edim.

Hər biri 1 rub. olan markalar və operettanın qısa məzmunu əlavə edilir.

18 fevral 1916 il" [11].

Sonra ərizə digər instansiyaya gedir.

Daxili işlər nazirliyi
Tiflis komitəsi
Mətbuat işləri üzrə
23 fevral 1916 il.
№ 105 Tiflis şəh.

İmperator əlahəzrətlərinə
İmperator əlahəzrətlərinin
Qafqazda canişininə

Mənə tapşırılmış Komitəyə baxılmaq üçün Uzeyir bəy Hacıbəyovun 4 pərdəli "Arşın mal alan" adlı gürcü dilində operettası təqdim edilmişdir, tərcümə İ.Giqoşvilinindir. Komitənin rəyinə görə bu pyesdə senzuraya əks heçnə olmadığından, senzura və mətbuat haqda nizamnamənin 84 maddəsinə əsasən onun Qafqaz vilayətinin səhnələrində göstərilməsinə icazə verilməsini Sizdən imperator əlahəzrətlərindən rica edirəm.

Pyesin bir nüsxəsi və qısa məzmunu təqdim olunur
Komitənin sədri V.Kolobayev
Mətbuat üzrə Tiflis komitəsinin sədrinə 28 fevral № 6049 [9].

Dəftərxana
İmperator əlahəzrətlərinin
Qafqazda canişini
Ümumi İ.şöbəsi
28 fevral 1916
№ 6049, Tiflis şəh.

Mətbuat üzrə Tiflis komitəsinin
sədrinə

Dəftərxana Sizə bildirir ki, imperator əlahəzrətlərinin Qafqazda canişini tərcüməçi İ.Giqoşviliyə aid, "Arşın mal alan" adlı Üzeyir bəy Hacıbəyovun 4 pərdəli operettası gürcü dilində senzuraya əks heç bir şeyin olmadığından, senzura haqda nizamnamənin 84-cü maddəsinə müvafiq olaraq onun Qafqaz vilayətinin səhnələrində göstərilməsinə Komitənin razılığı əsasında icazə vermişdir.

Pyesin əsli hər şeylə bərabər qaytarılır
Ali sarayın kamer-yunner
Rütbəsində direktor - imza
Kargüzar - imza [9].

Bu məqalədə təqdim olunan material bir sıra səbəblərə görə tarixi dəyərə malikdir. Onları sadalayıram:

1. Tarixi informasiyanın həqiqiliyi;
2. XIX əsrin sonu XX əsrin əvvəllərində Çar Rusiyasında kargüzarlıqla tanışlıq;
3. Azərbaycan mədəniyyəti tarixinin təcəssümü;
4. Qafqaz mədəniyyət xadimlərinin əsərinin səhnə taleyi haqda məlumat;
5. Çar Rusiyanın, xüsusən, Qafqaz senzura Komitəsinin bürokratiyası tərəfindən Qafqaz ziyalılarının nümayəndələrinin yaradıcı təşəbbüslərinə təzyiqin sübutu;

6. Qafqaz senzura komitəsinin sosial mahiyyəti haqda məlumat sinfi qərəzliliyi göstərir.

Ədəbiyyat

1. «Русский артист» № 8, от 24 февраля 1908 г.
2. ЦГИА ГР.СССР. ф.480, op. 1, d 1748, l.56
3. ЦГИА ГР. СССР, ф.480, оп. 1, д 1748, л.64.
4. ЦГИА ГР. СССР, ф.480, оп. 1, д 1572, л.56.
5. ЦГИА ГР. СССР, ф.480, оп. 1, д 1572, л.29.
6. ЦГИА ГР. СССР, ф.480, оп. 1, д 699, л.268.
7. ЦГИА ГР. СССР, ф.480, оп. 1, д 1312, л.20, 23, 25
8. ЦГИА ГР. СССР, ф.480, оп. 2, д 1203, л.34.
9. ЦГИА ГР. СССР, ф.480, оп. 2, д 1203, л.35.

Məqalənin redaksiyaya daxil olma tarixi: 29.06.2018
Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 02.07.2018
Məqalənin çapa qəbul olunma tarixi: 05.07.2018
Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:
fəlsəfə elmləri doktoru, professor Niyazi Mehdi
ADPU-nun Elmi Şurasının 15 aprel 2016-cı il tarixli 15 saylı qərarı ilə çap olunur.